# Şuşa mədəni mərkəz missiyasını uğurla yerinə yetirir





**_Ulu öndər yenidən Azərbaycanı idarə etməyə başlayandan sonra firavanlığın, əmin-amanlığın əsası qoyuldu. Artıq xalqımız üçün ağır günlər keçmişdə qalmışdı. Qısa müddət ərzində dövlətçilik ənənələrimiz bərpa olundu, sabitlik təmin edildi, xalqımızın şad, xürrəm gələcəyi üçün yollar açıldı. Bu, Azərbaycan xalqının müdrikliyi idi, çünki seçimində yanılmamışdı, onun taleyində dərin iz qoymuş dahiləri heç vaxt unutmur._**

Xalqımız "Heydər–Xalq, Xalq–Heydər" şüarı ilə taleyini öz ümummilli liderinə tapşırmışdı. Artıq düşmənlərimiz anlamağa başlamışdı ki, Azərbaycana qarşı mənfur planları alt-üst olub. Çünki hələ sovet dönəmindən məlum idi ki, Heydər Əliyev onların Azərbaycanla bağlı çirkin əməllərinin qarşısında bir sipərdir. Dəfələrlə cəhd etmişdilər ki, Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirsinlər, amma ulu öndərin qətiyyətli tədbirləri sayəsində bütün planları puç olmuşdu. Azərbaycan rəhbəri Heydər Əliyev hələ sovet zamanında Yuxarı Qarabağla Aran Qarabağı arasında təsərrüfat və iqtisadi bağları təmin etmişdi, Ağdam–Xankəndi dəmir yolunu çəkdirmişdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Xankəndidə Pedaqoji İnstitutun filialı açılmış, Qarabağda genişmiqyaslı quruculuq işləri aparılmış, yeni yaşayış binaları tikilmiş, mədəniyyət abidələrimiz bərpa edilmişdi.

Ən vacibi isə ulu öndər o illərdə Şuşa şəhərinin əhəmiyyətini artırdı, Azərbaycanın mədəniyyət mərkəzi olduğunu gördüyü əməli işlərlə sübut etdi. Şuşada doğulub-böyümüş, yaşayıb-yaratmış mədəniyyət və incəsənət xadimlərinə, şəhərin həyatında önəmli rol oynamış şəxslərə abidə qoyuldu, dahi şairimiz və dövlət xadimi Molla Pənah Vaqifə məqbərə tikildi, onun şərəfinə poeziya günləri keçirildi. Şuşa ulu öndərin diqqət və qayğısı sayəsində, özünün də dediyi kimi, Azərbaycanın görən gözünə, döyünən qəlbinə, mədəniyyətimizin və tariximizin rəmzinə çevrildi.

Məhz ulu öndərin xalqımızın qəlbində yaratdığı Şuşa sevgisi bizi 29 ildən sonra yenidən oraya qaytardı. Biz Şuşaya qan tökərək, şəhidlər verərək qayıtdıq, qəhrəman oğullarımız ölümdən belə qorxmadan qayalara dırmanaraq, sözün hər bir mənasında o əzəmətli zirvəyə yüksəldilər. Azərbaycan Ordusu müharibənin əlbəyaxa döyüş növünü məhz Şuşada tətbiq etdi. Şuşa əməliyyatı elə həyata keçirildi ki, şəhərə heç bir ziyan dəymədi. Budur xalqımızın Şuşa sevgisi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Şuşanın azad olunması ilə bağlı xalqa müraciət edərkən "Əziz Şuşa biz səni dirçəldəcəyik" – dedi. Vandallar tərəfindən bütün mədəniyyət abidələri və infrastrukturu dağıdılmış, təbii sərvətləri talan edilmiş Şuşa öz milli ənənəsinə sadiq qalaraq artıq bu gün böyük mədəniyyət tədbirlərinə ev sahibliyi edir. Şəhərin əvvəlki şöhrəti və əzəməti özünə qaytarılır. 30 il ərzində böyük ürək ağrısı ilə dinləyib hər notunda kövrəldiyimiz "Qarabağ şikəstəsi"nin, "Bayatı-Şiraz"ın sədaları şəhərin bütün dağlarını, daşlarını, qayalarını öz ağuşuna alır, Cıdır düzü at oynadan igidlərini yenidən salamlayır, İsa bulağı illərlə həsrətdən ürəkləri yanan əsl sakinlərinin qəlblərini sərinlədir.

Bu günlərdə Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin bərpadan sonra açılışı, Vaqif Poeziya Günlərinin keçirilməsi nəinki şəhərin, həmçinin ölkənin həyatında əlamətdar bir hadisə oldu. Keçirilən tədbirlərdə dövlətin ali rəhbərlərinin şəxsən iştirak etmələri, həmçinin ölkənin görkəmli ziyalılarının, elm, ədəbiyyat və incəsənət xadimlərinin mərasimə qatılması tədbirin müstəsna əhəmiyyətini sərgilədi.

Bu gün Şuşa şəhərinin bərpa olunmasında Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban xanım Əliyevanın əvəzolunmaz xidmətləri var. Molla Pənah Vaqifin məqbərəsinin bərpası, Yuxarı GövhərAğa və Aşağı GövhərAğa, həmçinin, Saatlı məscidlərinin təmiri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. İnanırıq ki, Şuşa dünyaya təqdim edə biləcəyimizdən də gözəl şəhər olacaq, sakinlərin və turistlərin könlünü oxşayacaq, şəhərin təbiətindən, təbii gözəlliklərindən tutmuş tarixi-mədəni abidələrinə qədər hamısından zövq alacaqlar. Hazırda şəhərdə genişmiqyaslı bərpa-quruculuq işləri ilə yanaşı, turistlərin gəlişinə də hazırlıq yüksək səviyyədə davam etdirilir. Artıq "Qarabağ" və "Xarıbülbül" hotelləri fəaliyyət göstərir, yeni beşulduzlu hotelin də inşası nəzərdə tutulub. İnanırıq ki, Şuşa tarixən onun daşıdığı xüsusi mədəni mərkəz missiyasını yüksək səviyyədə, müasir tələblər baxımından davam etdirəcək, qağlar başındakı bu büllur şəhərə gələn qonaqlar yenidən qayıtmaq arzusu ilə oranı xoş təəssüratlarla tərk edəcəklər.

**_Səttar MÖHBALIYEV,_**
**_Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,_**
**_Milli Məclisin deputatı_**

Xalq qəzeti 2021.- 5 sentyabr.- S.3.